- Sizə **B** işarəli zərf verilir. Zərfin üzərində yazılmış İştirakçı Kodunu yoxlayın. İçərisində aşağıdakıları tapacaqsınız:

    1. Bu Təlimat Vərəqi və/və ya
       Bu Təlimat Vərəqinin ana dilinizdə olan versiyası (mövcud olduğu təqdirdə)

    2. Məlumat Vərəqi və/və ya
       Məlumat Vərəqinin ana dilinizdə olan versiyası (mövcud olduğu təqdirdə)

    3. İş Vərəqləri dəsti

    4. **S** işarəli bir zərf (üzərində yazılmış İştirakçı Kodunu yoxlayın).

- **S zərfini yalnız imtahanın başlanğıcını bildirən fit səslənəndə açmağa icazə verilir.**

- **S** zərfinin içərisində aşağıdakıları tapacaqsınız:

    1. Sual Vərəqi və/və ya
       Sual Vərəqinin ana dilinizdə olan versiyası (mövcud olduğu təqdirdə)

    2. Cavab Vərəqləri dəsti.

- Bu imtahanın ümumi müddəti 5 saatdır.

- Bu imtahan aşağıdakı suallardan ibarətdir:

| | | |
|---|---|---|
| T01 və T02 | hər biri 10 bal | $2 \times 10 =$ 20 bal |
| T03 və T04 | hər biri 15 bal | $2 \times 15 =$ 30 bal |
| T05 – T08 | hər biri 20 bal | $4 \times 20 =$ 80 bal |
| T09 və T10 | hər biri 35 bal | $2 \times 35 =$ 70 bal |
| T11 və T12 | hər biri 50 bal | $2 \times 50 =$ 100 bal |
| | **Cəmi:** | 300 bal |

- **Cavablarınızı yazmaq üçün:**

    1. <u>Cavab Vərəqi:</u>

        - Hər sual üçün ayrıca Cavab Vərəqi təmin edilmişdir. İştirakçı kodunuzu Cavab Vərəqinin hər səhifəsinə yazın.

        - Hər sual / sualın hər hissəsi üçün yekun cavab(lar) Xülasə Cavab Vərəqindəki müvafiq xanaya yazılmalıdır.

    2. <u>İş Vərəqləri:</u>

        - Ətraflı işiniz İş Vərəqində göstərilməlidir.

        - İştirakçı Kodunuzu hər İş Vərəqinin hər iki tərəfinə yazın.

        - Yeni suala təzə İş Vərəqindən başlayın. Sual nömrəsini yuxarıda təmin edilmiş xanaya yazın.

        - İş Vərəqinin hər iki tərəfi istifadə edilməlidir. Yalnız çərçivəli sahənin içərisinə yazın.

        - Qiymətləndirilməsini istəmədiyiniz qaralama işləri üçün həmin hissəni aydın şəkildə üstündən xətt çəkərək ləğv edin.

        - Hər sual üçün səhifə nömrəsini İş Vərəqinin yuxarısında təmin edilmiş xanaya yazın, 1-dən başlayaraq (hər vərəqdə 2 səhifə var). Məsələn, əgər T01 üçün yalnız 1 İş Vərəqi istifadə edirsinizsə, sual nömrəsi və səhifə nömrəsi müvafiq olaraq həmin İş Vərəqinin ÖN və ARXA tərəfində "T01, 1" və "T01, 2" olmalıdır. Sonra, əgər T02 üçün 2 İş Vərəqi istifadə edirsinizsə,

sual nömrəsi və səhifə nömrəsi birinci İş Vərəqi üçün "T02, 1" və "T02, 2", ikinci İş Vərəqi üçün isə "T02, 3" və "T02, 4" olmalıdır.

- Lazım olduqda əlavə İş Vərəqləri istəyə bilərsiniz.
- **Nəzərə alın ki, İş Vərəqlərini yuxarıda göstərildiyi kimi işarələməmək, cavablarınızın qiymətləndirilməməsi ilə nəticələnə bilər.**

- **İmtahanın sonunda:**
  - İştirakçı Kodunuzu və səhifə nömrələrini istifadə etdiyiniz bütün vərəqlərə düzgün yazdığınızı yoxlayın.
  - Vərəqlərinizi aşağıdakı qaydada düzün:
    Hər sualın Cavab Vərəqi (T01-dən başlayaraq), ardınca həmin sual üçün istifadə edilmiş İş Vərəq(lər)i.
  - Eyni şəkildə hər sual üçün istifadə edilmiş Cavab Vərəqi və İş Vərəq(lər)ini ardıcıllıqla düzün.
  - Yuxarıdakı qaydada düzülmüş bütün istifadə edilmiş vərəqlərinizi kiçik S zərfinin içərisinə qoyun. İstifadə edib-etmədiyinizdən asılı olmayaraq bütün Cavab Vərəqləri S zərfinin içərisinə qoyulmalıdır.
  - **Yalnız kiçik S zərfinin içərisindəki materiallar qiymətləndiriləcək. Bu zərfin içərisinə qoyulmayan heç bir vərəq qiymətləndirilməyəcək.**
  - Kiçik S zərfini böyük B zərfinin içərisinə qoyun.
  - Bütün digər vərəqlər, yəni Təlimat Vərəq(lər)i, Sual Vərəq(lər)i, Məlumat Vərəq(lər)i və istifadə edilməmiş İş Vərəq(lər)i birbaşa böyük B zərfinin içərisinə qoyulmalıdır.
  - B zərfini ip möhürlə bağlayın.
  - B zərfini imtahan nəzarətçisinə təhvil verin. Masanın üzərində yaşıl və qırmızı kartdan başqa heç bir vərəqin qalmadığından əmin olun.

- **Ümumi Təlimatlar:**
  - İmtahan zamanı tualetə getmək lazım olarsa, masanızda olan yaşıl kartı əlinizdə qaldırın. Bir könüllü sizi müşayiət edəcək.
  - İmtahan zamanı hər hansı başqa köməyə ehtiyacınız olarsa, masanızda olan qırmızı kartı əlinizdə qaldırın.
  - Yazmaq üçün yalnız qara və ya göy qələm istifadə edin. Çəkmək üçün karandaş istifadə edə bilərsiniz.
  - Ətraflı həll olmadan verilən yekun cavaba görə bəzi ballar çıxıla bilər.
  - Yekun cavablarda qeyri-müvafiq əhəmiyyətli rəqəm sayı, vahidlərin olmaması və ya səhv vahidlər olduğu təqdirdə bəzi ballar çıxıla bilər.
  - Fundamental və astronomik sabitlərin lazımi dəyərləri sizə təqdim edilmiş Məlumat Vərəqindən götürülməlidir.